**“Xalq qəzeti”.**-2011.-18 oktyabr.-N 230.-S.4.

## Azərbaycanın sərhəd mühafizəsi müstəqillik illərində

**"Hər bir ölkənin dövlət müstəqilliyini və ərazi bütövlüyünü təsdiq edən amillərdən biri onun dövlət sərhədləri və bu sərhədlərin toxunulmazlığıdır".**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli sərhəd siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, ardıcıl həyata keçirilən islahatlar, yeni sərhəd mühafizə infrastrukturunun yaradılması, hərbi texnikanın və xüsusi texniki avadanlıqların yeniləşdirilməsi sayəsində Azərbaycan sərhəd mühafizəsi xeyli təkmilləşdirilmiş və mükəmməl inkişaf yolu keçərək qarşıya qoyulan hər bir tapşırığı yerinə yetirməyə qadir olan hərbi qurum səviyyəsinə yüksəlmiş, Avropada öncül mövqe qazanmışdır. Heydər Əliyev ideyalarına, dövlətçiliyə, xalqa sədaqətini dəfələrlə nümayiş etdirən hər bir sərhədçi zabit, gizir, çavuş, əsgər və matros müstəqil ölkəmizin dövlət sərhədlərini gecə-gündüz sayıqlıqla qoruyur.

1991-ci ilin 18 oktyabrında "Müstəqillik haqqında Konstitusiya Aktı" qəbul olunduqdan sonra milli dövlət quruculuğunun bərpası işlərinə başlanıldı. Müstəqil dövlət quruculuğunun əsas tərkib hissələrindən olan milli ordunun, o cümlədən sərhəd mühafizəsinin yaradılması prosesləri də ön plana çəkildi. 1991-ci ilin dekabr ayının 9-da Azərbaycan Respublikasının Milli Şurası "Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında» Qanun qəbul etdi. Bir həftə sonra, dekabr ayının 16-da isə Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi (DSMK) yaradıldı.

1992-93-cü illərdə dövlət sərhədinin mühafizəsinin gücləndirilməsi sahəsində bir neçə qərar verilsə də, onların yerinə yetirilməsi lazımi səviyyədə təşkil olunmurdu. Hakimiyyət dairələrinin səriştəsizliyi, bəzi xarici və daxili qüvvələrin dağıdıcılıq fəaliyyəti sərhəd mühafizəsinin formalaşması prosesində inamsızlıq yaradırdı.

Bu dövrdə Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə dövlət sərhədində mövcud mühəndis-texniki qurğuların bir hissəsi dağıdılmış, hərbi texnika və digər vasitələr yararsız hala salınmışdı. Ermənistan Silahlı Qüvvələri tərəfindən ölkə ərazisinin 20 faizinin işğalı nəticəsində İİR ilə dövlət sərhədinin 132 km sahəsinə nəzarət etmək də qeyri-mümkün oldu. Narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-leqal miqrasiya, insan alveri, radioaktiv maddələrin və kütləvi qırğın silahları komponentlərinin qanunsuz daşınması, qaçaqmalçılıq kimi cinayətlərlə məşğul olan transmilli kriminal qruplar Azərbaycan Respublikasının dövlət sərhədlərində yaranmış vəziyyətdən maksimum yararlanmağa çalışırdı. Nəticədə, dövlət sərhədinin pozulması halları kəskin şəkildə artmışdı.

Həmin illərdə dövlət sərhədinin mühafizəsi, əsasən, şəxsi heyətin fiziki imkanları və SSRİ dövründən qalmış, fiziki və mənəvi cəhətdən köhnəlmiş texniki vasitələr hesabına həyata keçirilirdi. Şimal və şimal-qərb istiqamətində yaradılmaqda olan sərhəd məntəqələri vaqonlarda, çadırlarda və ən yaxşı halda, uyğunlaşdırılmış binalarda yerləşirdi.

Belə bir vaxtda DSMK-nın qarşısında duran ən böyük vəzifə keçmiş sovet hərbçilərinin tabeliyində olan hərbi hissələrin və sərhəd dəstələrinin təhvil alınması idi. Rusiya Federasiyası Sərhəd Qoşunlarının Bakı şəhərində yerləşən Əməliyyat-Döyüş Şöbəsi, eləcə də hərbi hissələrin rəhbərləri bu prosesi uzatmağa, təxribatlar törətməyə çalışırdılar. 1992-ci ilin fevral ayının 12-də DSMK-nın Mühəndis-Tikinti İdarəsinin, "Bakı" Əlahiddə-Nəzarət Buraxılış Məntəqəsinin, Neftçala Təlim Mərkəzinin, Gözətçi Gəmilər Briqadasının və "Yalama" Nəzarət-Buraxılış Məntəqəsinin ştat strukturu təsdiq olundu.

Həmin ərəfədə Bakı bərə-keçid və hava limanlarında keçmiş SSRİ sərhədçiləri xidmət aparırdılar və bu, respublikadan silah-sursatın daşınmasına, xarici kəşfiyyat orqanları əməkdaşlarının ölkəmizə maneəsiz gəliş-gedişinə imkan verirdi. Bu cür halların qarşısını almaq məqsədi ilə may ayının 8-dən 9-na keçən gecə "Bakı" ƏNBM-in DSMK-nın tabeçiliyinə verilməsi təmin edildi.

DSMK-nın maddi-texniki bazasının yaradılmasında mühüm rol oynayan, silah-sursat və digər lazımi hərbi ləvazimatlarla dolu olan hərbi anbarların təhvil alınması əsas məsələ kimi qarşıda dururdu. Oğurluq, hərbi sursatın və əmlakın rus sərhədçiləri tərəfindən talan edilməsi də adi hal almışdı. Milli sərhədçilərimiz 1992-ci ilin iyul ayının 26-da əsl fədakarlıq göstərərək bu vacib hərbi obyekti öz tabeçiliklərinə keçirməyə nail oldular.

Sovet sərhədçilərinin milli qüvvələrlə əvəz edilməsi prosesindən aqressivləşən, əldə edilmiş sazişi pozaraq hərbi texnikanı, silah-sursatı imkan düşdükcə aradan çıxarmağa çalışan kənar sərhədçilər şimala doğru üz tutdular. Bu istiqamətdə nəzarəti gücləndirmək zərurəti meydana çıxdı və DSMK 1992-ci ilin iyun ayının 13-də "Yalama" ƏNBM-in yaradılması və fəaliyyətə başlaması haqqında qərar verdi. İyun ayının 16-da milli sərhəd qoşunlarımızın əsgərləri baş leytenant Elçin Quliyevin rəhbərliyi altında Azərbaycanla Rusiya arasındakı əsas tranzit yola nəzarət etmək üçün Samur qəsəbəsindəki körpü üzərinə çıxdılar (Respublikaya gəlib-gedən maşınların sənədlərinin yoxlanılması ilə fəaliyyətə başlayan kiçik bir post sonradan inkişaf edib nizam-intizamı və dövlət sərhədinin etibarlı mühafizəsində nümunəvi xidməti ilə fərqlənən Xudat Sərhəd Dəstəsinə çevrildi).

Təhvil alınmış hərbi hissələri şəxsi heyətlə komplektləşdirmək, eləcə də qəbul edilən sərhəd dəstələrini hazırlıqlı əsgərlərlə təmin etmək üçün Neftçala Təlim Bazasının milli sərhədçilərimizin tabeçiliyinə keçməsinin böyük əhəmiyyəti var idi. 1992-ci ilin iyul ayının 8-də təlim bazası çətinliklə olsa da rus sərhədçilərindən təhvil alındı və burada milli sərhədçilərimizin hazırlanmasına başlanıldı. Cənub sərhədlərində xidmət edən keçmiş SSRİ sərhədçiləri artıq könülsüz xidmət aparır, qaçaqmalçılıq və sərhədpozma halları baş alıb gedirdi. Təxribatçı qüvvələr bu əlverişli vəziyyətdən öz məqsədləri üçün yararlanırdılar. Belə bir şəraitdə DSMK birtərəfli qaydada 1992-ci ilin avqust ayının 1-də Lənkəran Sərhəd Dəstəsinin, avqust ayının 9-da isə Göytəpə Sərhəd Dəstəsinin yaradıldığını elan etdi. DSMK-nın atdığı bu məqsədyönlü addımları keçmiş SSRİ sərhədçilərinin rəhbərliyi narahatlıqla qarşılayır, daxili pozucu qüvvələrin gücündən hər vasitə ilə istifadə edərək aparılan prosesin qarşısını almağa çalışırdı. Lakin milli zabit və gizirlərimizin köməkliyi ilə öz sərhəd dəstələrimizin yaradılması işi uğurla həyata keçirilməkdə idi.

1992-ci ilin oktyabr ayından başlayaraq Hadrutda yerləşən Horadiz Sərhəd Dəstəsinin qəbulu məsələsi ön planda dururdu. Həmin ilin mart ayından başlayaraq rus sərhədçiləri tərəfindən bu sərhəd dəstəsinə məxsus nə var idisə, hamısı ermənilərə təhvil verilmişdi. Odur ki, həmin sərhəd dəstəsinin nəzarət etdiyi ərazidə baş verə biləcək təxribatların qarşısını almaq üçün dövlət sərhədimizin bu sahəsi Azərbaycan sərhədçiləri tərəfindən tezliklə mühafizəyə götürülməli idi. Bir sıra çətinliklərə baxmayaraq, 1992-ci ilin noyabr ayının 1-də Horadiz sərhəd dəstəsi də sərhədçilərimiz tərəfindən təhvil alındı.

Xəzər dənizi hövzəsində dövlət sərhədinin mühafizəsini təmin etmək məqsədilə 1992-ci ilin oktyabr ayının 6-da Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında bağlanan müqavilənin şərtlərinə uyğun olaraq, 27 noyabr 1992-ci il tarixdə Əlahiddə Sərhəd Gözətçi Gəmilər Briqadası milli sərhədçilərimizin ixtiyarına verildi. Lakin bütün gəmilər, silah-sursat, avtomobil və digər texnika ölkəmizdən çıxarılaraq Həştərxana aparılmışdı. Azərbaycanda yalnız iki ədəd xidmətə yararsız gəmi qalmışdı.

Keçmiş sovet sərhədçilərinin Azərbaycan ərazisindən çıxarılması prosesi 1993-cü ilin aprel ayına qədər davam etdi. Həmin ilin aprel ayının 5-də Rusiya Federasiyasının Azərbaycan Respublikası ərazisində yerləşən sonuncu rabitə taborunun təhvil-təslimi başa çatdı və bununla da, sonuncu rus sərhədçisi ölkəmizin ərazisini tərk etdi.

Respublikamızda ordu quruculuğu, o cümlədən Sərhəd Qoşunlarının yaranma prosesi müxtəlif siyasi qüvvələrin hakimiyyət ehtiraslarının qızışdığı dövrlə üst-üstə düşmüşdü. Erməni təcavüzünə məruz qalan ölkəmizdə daxili siyasi vəziyyətin də qeyri-sabit olması, siyasi hakimiyyətdəki qüvvələrin naşılığı, bacarıqsızlığı Sərhəd Qoşunlarının formalaşmasına mane olur, sərhədlərimizin mühafizəsi işinin təşkili üçün əsaslı tədbirlərin həyata keçirilməsinə imkan vermirdi.

1992-ci ilin oktyabr ayının 9-dan etibarən DSMK Milli Təhlükəsizlik Nazirliyinin Baş İdarəsi kimi fəaliyyət göstərməyə başladı və dövlət sərhədlərimizin qorunması işi milli təhlükəsizliyimizin ayrılmaz tərkib hissəsinə çevrildi. Müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının çox ağır, çətin və mürəkkəb dövründə ictimai, siyasi, iqtisadi, mədəni həyatın bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də böyük işlər görməyə nail oldu. 1988-ci ildən etibarən avtomobil və dəmir yolu ermənilər tərəfindən bağlanan, iqtisadi blokadaya alınan, xarici aləmdən təcrid edilən muxtar respublika basqınlara və talanlara məruz qalır, sərhədyanı yaşayış məntəqələri erməni işğalçıları tərəfindən mütəmadi olaraq atəşə tutulur, insanlar öldürülür, girov götürülürdülər. Muxtar respublikanın ərazisində olan 75-ci motoatıcı diviziyanın və 41-ci sərhəd dəstəsinin hərbçiləri isə Moskvanın siyasətinə uyğun olaraq Naxçıvanı nəinki erməni təcavüzündən qorumur, hətta bəzi hallarda ermənilərə kömək edir, yerli əhali ilə münaqişələr yaradırdılar. Belə bir vəziyyət muxtar respublikanın müdafiəsinin milli qüvvələr hesabına təşkil olunması istiqamətində təcili və təxirəsalınmaz tədbirlərin görülməsini tələb edirdi.

Heç təsadüfi deyildir ki, uzaqgörən dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildikdən cəmi üç gün sonra, 1991-ci ilin sentyabr ayının 6-da muxtar respublikada Dövlət Milli Müdafiə Komitəsi yaradılması barədə qərar verdi. Belə bir qərar qəbul etməklə uzaqgörən sərkərdə Azərbaycanın ilk peşəkar, vahid rəhbərliyə tabe olan milli ordusunun əsasını qoydu. Ulu öndərin rəhbərliyi ilə Milli Müdafiə Komitəsinin statusu, strukturu, təşkili haqqında qanunvericilik bazası yaradıldı, fəaliyyət istiqamətləri müəyyənləşdirildi və Naxçıvandakı sovet hərbi hissələrinin milliləşdirilməsi prosesinə başlanıldı. Ulu öndərin o vaxt qəbul etdiyi tarixi qərarların bir hissəsi sərhədlərlə, Vətənin hüdudlarının milli sərhədçilərimiz tərəfindən mühafizə olunmasının təşkili və həyata keçirilməsi ilə əlaqədar olmuşdur. Zaqafqaziyada sərhədlərin qorunması işinə incəliklərinə qədər bələd olan görkəmli dövlət xadimi bilirdi ki, Sədərək və Ordubad rayonları ərazisində ermənilərlə həmsərhəd olan sərhəd məntəqələri Naxçıvandakı 41-ci sərhəd dəstəsinə deyil, Ermənistan ərazisində fəaliyyət göstərən müxtəlif sərhəd dəstələrinə tabedir. Sovetlər zamanı Naxçıvan ərazisindəki sərhəd zastavaları düşünülmüş şəkildə bu cür parçalanmışdı. O dövrdə Şərurdan Ermənistana gedərkən nəzarət məntəqəsi sərhəd xəttinə yaxın yerdə deyil, xeyli aralıda, muxtar respublikanın içərilərinə doğru gedən yerdə yaradılmışdı. Sədərək nəzarət məntəqəsi də Vəlidağla Dəhnə dağının birləşdiyi yerdə, "Qurd qapısı» deyilən ərazidə təşkil olunmuşdu və Sədərək qəsəbəsi nəzarət-buraxılış məntəqəsindən o tərəfdə qalmışdı. Ordubad rayonu ərazisində isə vəziyyət daha anlaşılmaz idi. Bu rayonun ərazisindəki bütün sərhəd zastavaları ("Yaycı» sərhəd zastavasından "Kotam» sərhəd zastavasınadək) Ermənistan ərazisində süni şəkildə yaradılan Mehri Sərhəd Dəstəsinə tabe edilmişdi.

Belə bir vəziyyət sərhədçilərlə yerli hakimiyyət orqanları arasında ciddi problemlər yaradır, yerli əhalini narazı

salırdı. Ulu Öndər Sərhəd Qoşunları Zaqafqaziya Dairəsinin və 41-ci sərhəd dəstəsinin rəhbərliyindən tələb etdi ki, muxtar respublikanın ərazisindəki sərhəd məntəqələrinin hamısı bir dəstədə cəmlənsin və 41-ci sərhəd dəstəsinə tabe etdirilsin. Bu məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin tələb etdiyi müddətdə, yəni 3 gün ərzində (30 oktyabr 1991-ci il) həll edildi. Naxçıvan Sərhəd dəstəsinin əmlakının, silah-sursatının tamamilə milli sərhədçilərimizə təhvil verilməsi işi də uzaqgörən sərkərdənin qətiyyəti sayəsində ölkəmizin milli maraqlarına uyğun şəkildə həll olundu. 1992-ci ilin avqust ayının 22-də 41-ci sərhəd dəstəsi Azərbaycanın tabeliyinə keçdi və orada müstəqil Azərbaycanın milli bayrağı dalğalandı. (Bu hadisəni Naxçıvan sərhədçiləri sərhəd dəstəsinin yaradılması günü kimi qeyd edirlər.) Beləliklə, ölkəmizdə müəyyən xidməti ərazidə sərhədlərimizi tam mühafizə altına götürən ilk milli sərhəd dəstəsi yaradıldı.

O vaxt respublikamızın ərazisindəki sərhəd dəstələrinin əmlakının bölünməsi, yəni 50 faizinin Rusiya Federasiyasının, 50 faizinin isə Azərbaycan Respublikasının sərəncamına verilməsi barədə razılaşma olmuşdu. 1992-ci ilin sentyabr ayının 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin yığıncağında "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunması haqqında" məsələyə baxıldı və qərar qəbul olundu. Az sonra isə muxtar respublika ərazisində yerləşmiş keçmiş SSRİ Silahlı Qüvvələrinin tabeliyində olan silah-sursatın, texnikanın, hərbi və mülki əmlakın bütövlüklə Azərbaycana təhvil verilməsi prosesinə başlanıldı.

Naxçıvana məkrli əllərin uzanmasına imkan verməmək, mürəkkəb ictimai-siyasi şəraitdə, blokadada inləyən torpaqları işğal təhlükəsindən xilas etmək zərurəti ordu quruculuğu işini daha da sürətləndirdi. 1992-ci ilin sentyabr ayının 29-da rus zabitləri ilə təhvil-təslim prosesinin rəsmi imzalanma mərasimi oldu. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvan ərazisində yerləşən hərbi hissələrin texnika və hərbi əmlakı heç bir şərt qoyulmadan xalqımızın ixtiyarına verildi və rus sərhədçiləri Naxçıvandan yola salındı.

1992-ci ilin oktyabr ayının 18-də Naxçıvan Sərhəd Dəstəsində gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Bu, Azərbaycan Respublikasının milli sərhədçilərinin ilk andiçmə mərasimi idi. Mərasimdə iştirak edən Ali Məclis sədri Heydər Əliyev sərhədçiləri təbrik edərək bu sözləri dedi: "Siz müstəqil Azərbaycanın sərhədlərinin toxunulmazlığını, respublikamızın ərazi bütövlüyünü təmin edən sərhəd qoşunlarının sıralarında xidmət etməyə başlayırsınız. Siz indi müstəqil Azərbaycan dövlətinə sədaqətlə xidmət etmək andı içdiniz. Bu and müqəddəs anddır. Azərbaycan xalqının son 70 ildə xidmətə gedən oğulları daim Sovet Ordusuna, Sovet dövlətinə sədaqətlə xidmət edəcəklərinə and içərdilər. Bu, o dövrün xarakterik cəhəti idi. İndi isə bizim üçün ən şərəfli, ən xoşbəxt an ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət olub, Azərbaycan xalqı öz milli azadlığına nail olub və indi müstəqil dövlətin atributlarını yaratmaqla məşğuldur. Bu baxımdan ən mühüm sahə olan Sərhəd Qoşunlarının yaradılması prosesi gedir...

Biz bu gün çox böyük məmnuniyyət hissi ilə müstəqil Azərbaycan dövlətində Sərhəd Qoşunlarının yaranmasını məhz buradan, Naxçıvandan, Azərbaycanın bu qədim diyarından başlandığını qeyd edirik..."

1993-cü ilin iyununda Azərbaycanda yenidən hakimiyyətə gələn dahi dövlət xadimi Heydər Əliyevin müdrikliyi sayəsində ictimai həyatın bütün sahələrində olduğu kimi, dövlət sərhədinin mühafizəsində də mühüm dəyişikliklər baş verdi. Dövlət sərhədlərinin mühafizəsi məsələlərinə göstərilən diqqət və qayğı sayəsində cənub sərhədlərində dağıdılmış sərhəd infrastrukturunun bərpası, ölkənin şimal və şimal-qərb sərhədlərində sərhəd məntəqələrinin yaradılması və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər görüldü. XX əsrin 60-cı illərinin 2-ci yarısından etibarən həyata keçirilən kadr siyasəti sayəsində SSRİ sərhəd qoşunlarında məsul vəzifələrə yüksəlmiş milli sərhədçi kadrlar xidmətə cəlb edildi və peşəkar sərhədçilərin təcrübəsindən geniş istifadə olunmağa başlanıldı.

Milli sərhəd mühafizəsinin formalaşdığı 1993-2002-ci illərdə dövlət sərhədlərinin etibarlı mühafizəsinin təşkili sahəsində böyük irəliləyişlərə nail olundu. Sərhəd mühafizəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, maliyyə-təsərrüfat fəaliyyətinin nizamlanması, yeni yaradılmış sərhəd dəstələrində və sərhəd zastavalarında müasir tələblərə uyğun xidməti və yaşayış binalarının tikilib istifadəyə verilməsi prosesləri uğurla davam etdirildi. Azərbaycan-Rusiya sərhədində Şəki Əlahiddə Sərhəd Komendantlığı (11 iyul 1995-ci il), Azərbaycan-Gürcüstan sərhədində isə Zaqatala (3 mart 1993-cü il), Şəmkir (15 avqust 1994-cü il) sərhəd dəstələri yaradıldı. Qısa tarixi vaxt ərzində sərhəd mühafizəsi nəinki formalaşma prosesini başa çatdırdı, həm də təkmilləşərək respublikanın sayılıb-seçilən hərbi qurumlarından birinə çevrildi.

Lakin bu proseslər asanlıqla getmirdi. Sərhəd mühafizəsinin yaradılması ilə bağlı qarşıya çıxan əsas problemlərdən biri ixtisaslı kadrların çatışmaması idi. Keçmiş SSRİ Silahlı Qüvvələri sıralarında xidmət edən azərbaycanlı zabitlərin başqa millətlərlə müqayisədə azlıq təşkil etməsi yeni yaradılmış sərhəd mühafizəsinin sərhədçi zabitlərlə komplektləşdirilməsində çox böyük problemə çevrilmişdi. SSRİ Sərhəd Qoşunlarında xidmət edən azərbaycanlı zabit və gizirlərin, demək olar ki, hamısı könüllü olaraq Azərbaycan sərhəd mühafizəsində xidmətə daxil oldular. Lakin bu, qoşunların tələbatını tam ödəmirdi. Odur ki, ehtiyatda olan zabitlər, eləcə də digər hərbi mükəlləfiyyətli vətəndaşlar könüllü olaraq xidmət etmək üçün sərhəd mühafizəsinə həqiqi hərbi xidmətə qəbul edildilər. 1992-ci ildən sərhədçi zabitlər Müdafiə Nazirliyinin tabeliyində olan Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbinin sərhəd fakültəsində hazırlanmağa başlanıldı. 1994-cü ildən başlayaraq Sərhəd Qoşunları həmin məktəbin məzunları ilə komplektləşdirildi. Məktəbin tədris prosesində sərhəd mühafizəsinin spesifik xüsusiyyətlərinin tam nəzərə alınmaması, sərhədçi zabitlərin peşə və mənəvi-psixoloji hazırlıqlarının lazımi

səviyyədə olmaması, son nəticədə dövlət sərhədinin etibarlı mühafizə edilməsi işinə mənfi təsir göstərirdi. Məhz bunları nəzərə alaraq, 1998-ci ilin dekabr ayının 1-də ulu öndər Heydər Əliyev Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması haqqında fərman verdi.

Sərhədçi zabit və gizirlərin, xüsusilə ehtiyatdan xidmətə qəbul olunanların bilik və peşə bacarığını artırmaq məqsədi ilə sərhəd mühafizəsinin tərkibində 1994-cü ilin avqust ayının 12-də Kadrların Hazırlanması və Təkmilləşdirilməsi Kursları yaradıldı.

Prezident Heydər Əliyevin Azərbaycan sərhədçiləri ilə görüşləri sərhəd mühafizəsinin inkişafı üçün xüsusilə əhəmiyyətli oldu. Onun 1996-cı ilin dekabr ayının 16-da, 2001-ci ilin avqust ayının 19-da Sərhəd Qoşunlarının ildönümlərinə həsr olunmuş mərasimlərdə iştirakı, 2002-ci ilin mart ayının 7-də sərhəd qoşunlarının illik hesabatını qəbul etməsi, 2003-cü ilin fevral ayının 6-da Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti ilə görüşməsi, sərhəd mühafizəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün verdiyi göstərişlər milli sərhəd mühafizəsinə yüksək qayğının nümunəsi oldu. 2001-ci ildə Sərhəd Qoşunlarının xidməti hesabatını qəbul edərkən Ulu Öndər sərhədçilərin qarşısında beynəlxalq terrorçuluğa, qanunsuz miqrasiyaya, narkotiklərin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə aparılması, dənizdə neft-qaz hasilatı infrastrukturunun mühafizəsi kimi vəzifələr qoydu.

2002-ci ilin iyul ayının 31-də Prezident Heydər Əliyev Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin yaradılması barədə fərman imzaladı. Dövlət Sərhəd Xidmətinin yaradılması və ona mərkəzi icra hakimiyyəti orqanı statusunun verilməsi ilə Azərbaycan sərhədçilərinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Dövlət Sərhəd Xidməti qarşısında müasir dövrün tələblərinə uyğun olaraq yeni vəzifələr qoyuldu və sərhəd təhlükəsizliyinin təminatı məsələlərinin ən yüksək səviyyədə həll olunmasına başlanıldı.

2002-ci ilin oktyabr ayının 24-də sərhəd aviasiyası yaradıldı, DSX-nin balansına verilmiş təyyarə və vertolyotlar əsaslı təmir edilərək xidmətə cəlb olundu, sərhədin havadan mühafizəsinin təşkili, dövlət sərhədində baş verən hadisələrə çevik reaksiya verilməsi və şəxsi heyətin təyinat yerinə vaxtında çatdırılması, dağlıq ərazilərdə və dənizdə xilasetmə əməliyyatlarının aparılması üçün sərhəd aviasiyasının istifadəsinə başlanıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladığı ilk vaxtlardan ümummilli lider Heydər Əliyevin milli sərhəd siyasətini uğurla davam etdirərək sərhədçiləri və sərhəd mühafizəsini daim dövlət qayğısı ilə əhatə etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2004-cü ilin iyul ayının 21-də Xudat Sərhəd Dəstəsinin şəxsi heyəti ilə görüşü ölkənin sərhəd mühafizəsi salnaməsində yeni səhifə açdı. Ali Baş Komandanın 2005-ci ilin avqust ayının 16-da Dövlət Sərhəd Xidmətinin mərkəzi aparatında sərhəd dəstələrinə Döyüş Bayraqlarını təqdim etməsi və Heydər Əliyev Elmi Araşdırmalar Mərkəzinin açılışında iştirakı, oktyabr ayının 12-də Şəmkir Sərhəd Dəstəsinin xidməti ərazisində sərhəd mühafizə infrastrukturu ilə tanış olması, 2006-cı ilin aprel ayının 12-də Zaqatala Sərhəd Dəstəsinin şəxsi heyəti ilə görüşü, oktyabr ayının 7-də Xudat Sərhəd Dəstəsinin "Xınalıq» sərhəd zastavasında, dekabr ayının 7-də həmin sərhəd dəstəsinin zabit-gizir heyəti üçün inşa olunmuş 11 binadan ibarət 66 mənzilli yaşayış massivinin açılışında, 2007-ci ilin avqust ayının 17-də "Sərhədçi" istirahət mərkəzinin istifadəyə verilməsində, 2008-ci ilin noyabr ayının 8-də Türkan qəsəbəsində Sahil Mühafizəsinin yeni bazasının açılışında, 2009-cu ilin mart ayının 6-da "N" saylı hərbi hissənin, 2009-cu ilin avqust ayının 31-də "Sərhədçi" idman olimpiya mərkəzinin istifadəyə verilməsi mərasimində, 2010-cu ilin aprel ayının 29-da Göytəpə Sərhəd Dəstəsinin qarnizonunda, avqust ayının 10-da Dövlət Sərhəd Xidmətinin Akademiyasında, avqust ayının 12-də Xudat Sərhəd Dəstəsinin Yuxarı Zeyxur sərhəd zastavasında, 2011-ci ilin fevral ayının 9-da "Şıxlı" sərhəd nəzarət məntəqəsində, aprel ayının 15-də "Astara" sərhəd nəzarət məntəqəsində olması, may ayının 19-da Bakı şəhərində sərhədçilər üçün tikilmiş 12 mərtəbəli yaşayış binasının istifadəyə verilməsi münasibəti ilə keçirilən mərasimdə iştirak etməsi Dövlət Sərhəd Xidmətinin inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən diqqət və qayğının əyani təzahürləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 2004-cü ilin yanvar ayının 14-də Naxçıvan sərhəd dəstəsinin bazasında sərhəd diviziyası yaradıldı. 2005-ci ilin fevral ayının 18-də dövlət başçısının Fərmanı ilə sərhəd gözətçi gəmilər dəstəsinin əsasında DSX-nin Sahil Mühafizəsinin yaradılması dəniz sərhədlərinin mühafizəsinə və Xəzərdə ölkəmizin maraqlarının daha yüksək səviyyədə təmin edilməsinə geniş imkanlar yaratdı. DSX-nin Xəzər dənizində müşahidə, axtarış və xilasetmə imkanları xeyli inkişaf etdirildi, sərhəd gözətçi gəmiləri müasir naviqasiya və aşkaretmə avadanlıqları ilə təchiz edildi, dəniz səthi üzərində nəzarətin təşkili üçün zəruri istiqamətlərdə radiolokasiya stansiyaları quraşdırıldı. 2005-ci ilin dekabr ayının 27-də "Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı" təsdiq edildi.

2007-ci ilin iyun ayının 12-də Prezident İlham Əliyevin Dövlət Sərhəd Xidmətinin Akademiyasının yaradılması barədə sərəncam imzalaması Vətənimizin sərhəd mühafizəsi sisteminin təkmilləşdirilməsində mühüm rol oynadı. 2008-ci ilin sentyabr ayının 14-də Dövlət Sərhəd Xidməti Akademiyasının ilk kursantları Vətənə, dövlətə sədaqət andı içərək təlim və tədrisə başladılar. 2008-ci il noyabr ayının 27-də akademiyanın yeni səhra təlim mərkəzi istifadəyə verildi. Mərkəzdə kursantların nəzəri hərbi biliklərinin təcrübədə işlənilməsi, zəruri döyüş və əməliyyat-taktiki vərdişlərinə yiyələnməsi üçün hər bir şərait yaradılmışdır. "Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı" uğurla həyata keçirilmişdir.

Şəmkir, Şəki və Göytəpə Sərhəd Dəstələrinin qarnizonları, xidməti heyvanlar təlimatçılarının hazırlığı mərkəzi,

"Sərhədçi" istirahət mərkəzi, aviasiya dəstəsində komanda-idarəetmə mərkəzi, hərbi hissə qarnizonlarında zabitlər üçün yaşayış binaları, sərhəd nümayəndələri üçün görüş evləri, sərhəd dəstələrində müasir sərhəd zastavası kompleksləri və sahil məntəqələri xidməti istifadəyə verilmiş, Astara rayonu ərazisində cənub katerlər divizionu, Türkan qəsəbəsində Sahil Mühafizəsi üçün müasir tələblərə cavab verən, böyük limana, hidrotexniki qurğulara, vertolyot meydançasına, təlim mərkəzinə, geniş xidməti obyektlərə və yaşayış massivinə malik yeni baza tikilmişdir. Cənub sərhədlərində onlarla sərhəd zastavası əsaslı təmir olunmuş və yeni sərhəd yolları salınmışdır. Sərhəd dəstələrində videonəzarət sistemlərinin yaradılması, sərhəd zastavalarında müşahidə kameralarının quraşdırılması və görüntülərin dəstə qərargahına ötürülməsi nəticəsində sərhəd xəttində xidmətin təşkilinə bilavasitə nəzarət gücləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında ardıcıl həyata keçirilən islahatlar, yeni sərhəd mühafizə infrastrukturunun yaradılması, hərbi texnikanın və xüsusi-texniki avadanlıqların yeniləşdirilməsi sayəsində Azərbaycan Sərhəd Mühafizəsi mükəmməl inkişaf yolu keçərək qarşıya qoyulan hər bir tapşırığı yerinə yetirməyə qadir olan hərbi qurum səviyyəsinə yüksəlmişdir.

**Fərhad TAĞIZADƏ,**
**Dövlət Sərhəd Xidməti rəisinin müavini,**
**general-mayor**